**Lisenziya üçün rüsumlar elektron qaydada ödəniləcək**

Son illər sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırılması sahəsində bir sıra işlər görülüb, sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması üçün addımlar atılıb: lisenziya verən dövlət orqanları tərəfindən sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara qarşı neqativ hallar aradan qaldırılıb, bürokratik əngələrə son qoyulub. Sahibkarlığın inkişafına dövlət qayğısının artırılması məqsədilə xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayı kəskin surətdə azaldılıb, lisenziya müddəti uzadılıb, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarına yol verməyən və bu sahədə şəffaflığı təmin edən qaydalar tətbiq edilib.

İcazələr sisteminin təkmilləşdirilməsi istiqamətində yeni ciddi addım atılıb. Sahibkarlıq subyektlərinə verilən bütün icazələr barədə məlumatları əks etdirən vahid reyestr internet portalının yaradılmasına başlanılıb.

Sahibkarlığın inkişafı sahəsində dövlət siyasətini həyata keçirən və lisenziyalaşdırılma sahəsində xüsusi səlahiyyətli orqan olan İqtisadi İnkişaf Nazirliyi (İİN) lisenziyaların verilməsi qaydalarını daha da təkmilləşdirib. Fiziki və hüquqi şəxslər üçün lisenziyaların verilməsi, qrant müqavilələrinin alınmasının elektron qaydada aparılması üçün işləri yekunlaşdıran nazirlik bu sahədə müvafiq rüsum və ödənişlərin Hökumət Ödənişləri Portalı çərçivəsində həyata keçirilməsini təmin etmək niyyətindəir. Artıq İİN daxili informasiya sistemini Mərkəzi Bank tərəfindən yaradılmış Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminə (KÖMİS) inteqrasiya edib.

Yaxın günlərdə istifadəyə veriləcək sistemə uyğun olaraq sahibkarlar lisenziyaların alınmasına görə rüsumları Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin platformasında Hökumət Ödənişləri Portalı çərçivəsində ödəyəcəklər. Sahibkarlar Hökumət Ödənişləri Portalından istifadə etmək üçün «elektron imza» kartı əldə edəcəklər. Qeyd edək ki, 3 il müddətinə verilən «elektron imza» kartının qiyməti fərdi şəxslər üçün 20-30 manat, dövlət hakimiyyəti orqanları üçün 135 manat, hüquqi şəxslər üçün isə 168 manat müəyyənləşdirilib.

Beləliklə, xüsusi razılıq tələb edən icazələrin alınması sistemi tamamilə elektronlaşacaq və bununla da dövlət-biznes münasibətləri minimuma enəcək. E-xidmətlərin tətbiqi ölkədə nağdsız hesablaşmaların bir istiqaməti olmaqla, bu sahənin daha geniş inkişafına şərait yaradacaq. Məlum olduğu kimi, vergi, rüsum, icarə haqqı, digər ödənişlərin dövlət qurumlarına birbaşa ödənilməsi yolu ilə bankdankənar nağd qaydada aparılmasının aradan qaldırılması, təsərrüfat subyektlərində nağd hesablaşmaların minimuma endirilməsi, inzibati xətalara görə cərimələrin, gömrük ödənişlərinin, xüsusi razılıq tələb olunan sahələr üzrə rüsumların bank vasitəsilə ödənilməsinin təmin edilməsi bütövlükdə nağdsız ödənişlərin stimullaşdırılmasına xidmət edir.

Hazırda lisenziyalaşdırma sahibkarlıq sektorunda ən mühüm məsələlərdən biridir və bu sahədə modern və çevik idarəetmənin yaradılması, şəffaflığın təmin edilməsi, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması dövlətin strateji məqsədlərindəndir. Məhz bu baxımdan, xüsusi razılıq tələb edən fəaliyyət sahələri ilə bağlı rüsumların və digər ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinin təmin edilməsi çox mühüm əhəmiyyət daşıyır. Bununla sahibkarlıq sektorunda lisenziyalaşma sahəsində şəffaflıq tam təmin olunacaq, sahibkarların fəaliyyəti üçün daha geniş imkanlar yaranacaq.

Lisenziyaların alınması üçün imkanları genişləndirmək məqsədilə Milli Ödəniş Sisteminin bütün ölkəni əhatə edən geniş infrastrukturundan istifadə olunacaq. Bu isə regionlarda fəaliyyətə başlayan sahibkarların vaxt və rahatlıq baxımından işini xeyli yüngülləşdirəcək.

Elbrus CƏFƏRLİ